İSSN-0207-4710

# GÖYƏRÇİN





# PALID QOZALARI VƏ XORUZ

*(Rus nağılı)*

Qədim zamanlarda kasıb bir kişi, onun da özü kimi qoca bir arvadı vardı. Onlar o qədər kasıb idilər ki, yeməyə bir tikə çörək də tapa bilmirdilər. Elə buna görə də qarı ilə qoca bir-birinə qoşulub meşəyə getdilər. Xeyli palıd qozası yığıb evə gətirdilər ki, onları yesinlər. Onlar acgözlüklə yeməyə başladılar. Birdən qozalardan biri qarının əlindən sürüşüb döşəmə taxtasının arasına düşdü.

Aradan bir müddət keçəndən sora qoza pöhrələdi, sürətlə böyüyüb nəhəng bir ağac oldu. Qoca məcburiyyət qarşısında qalıb əvvəlcə döşəmə taxtasını, sonra tavanı, daha sonra isə evin üstündəki çardağı sökməli oldu. Onlar düşündülər ki, evlərinin içində bitən palıd qoza gətirəndə daha meşəyə getməyə ehtiyac da qalmayacaq.

Palıd ağacı sürətlə böyüdü, əvvəl döşəməni, tavanı, sonra çardağı deşib göylərə ucaldı. Ağac o qədər böyüdü ki, bir də gördü ki, onun ən uca budaqlarından birinə yekə xoruz qonub. Qoca ağaca çıxıb qoza yığanda həmin xoruzu da tutub özü ilə komasına gətirdi.

Qarı qozaları üyüdüb onlardan dadlı piroq bişirdi və onlar iştahla bu xörəyi yeməyə başladılar. Elə bu zaman təsadüfən onların komasının yanından bir ağa keçirdi. O, bərk acmışdı. Komaya yaxınlaşıb soruşdu ki, bəlkə sizdə yeməyə bir şey ola?

Qarı onu bişirdiyi piroqa qonaq elədi. Yediyi o qeyri-adi yemək ağanın xoşuna gəldiyi üçün ev sahiblərinə dedi ki, sizdəki qozaların hamısını satın alıram.

Bu təklifə razı olmayan ev sahibləri yığdıqları qozaları gizlədilər. Ancaq bir də baxdılar ki, həmin qozaları ağa oğurlayıb gizlincə aparıb.

Sahiblərinin kədərləndiyini görən xoruz dedi ki, fikir verməyin, gedib sizin qozalarınızın hamısını alıb gətirəcəyəm.

Xoruz uçub qozaları oğurlayan ağanın darvazasının üstünə qondu və bərkdən banladı:

-Quq-qulu- quuuu! Bizim qozaları geri qaytarın!

Ev sahibi hirslənib qulluqçulara dedi ki, tez xoruzu tutub suya bassınlar.

Xoruzu tutub suya atdılar. O qışqıra-qışqıra dedi:

-Ay dimdiyim, dimdiyim,  
Bəsdir suda çimdiyim!  
Tez olun için suyu,  
Boşalsın dərin quyu!

Quyunun suyu boşalan kimi xoruz ordan çıxıb yenidən darvazanın üstünə qonub banladı:

-Quq-qulu-quuu! Bizim qozaları geri qaytarın!

Bu dəfə ağanın əmri ilə xoruzu tutub sobaya - odun içinə atdılar. Xoruz oxumağa başladı:

-Ay dimdiyim, su əndər,  
Alovu külə döndər!

Quyuda içdiyi suyun hamısını sobaya töküb odu söndürən xoruz yenidən darvazaya qonub oxudu:

-Quq-qulu-quuuu!  
Ədalətsiz işdi bu!

Xoruzun sözlərini eşidən qonaqlar təəccübləndilər. Ağanın başı onlara qarışanda xoruz oğurlanmış qozaları götürüb öz sahiblərinin yanına uçdu.

Onlar birlikdə xoşbəxt yaşamağa başladılar.

*Tərcümə edib işləyəni R.Y.Əliyev*





